**Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2020-ci il 23 iyun tarixli 213 nömrəli Qərarı ilə təsdiq edilmiş "Gənclər arasında ailənin və nikahın əhəmiyyəti, onun qorunması və möhkəmləndirilməsi məqsədilə erkən nikahın və qohumlar arasında nikahın mənfi nəticələrinə dair maarifləndirmə Qaydası"nın 6.1.11-ci yarımbəndinə əsasən Qaydanın 1.2-ci bəndində göstərilən orqanlar (qurumlar) tərəfindən daxil olan məlumatlara əsasən 2022-ci il ərzində görülmüş işlər üzrə hazırlanan**

**CƏDVƏL**

| Sıra №-si | Bəndin nömrəsi | Tapşırığın, tövsiyənin məzmunu | İcraçı orqanlar | Tapşırığın, tövsiyənin icra müddəti | İcranın gedişinə aid məlumat (görülmüş işlər) | İcra olunub | İcra olun-mayıb | Qismən icra olunubsa və ya icra olunmayıbsa bunun səbəbləri |
|---|---|---|---|---|---|---|---|---|
| *Qobustan RİH* | | | | | | | | |
| 1. | 5 | Gənclər arasında maarifləndirmənin istiqamətləri:<br><br>5.1.1 gənclər arasında ailə dəyərlərinin təbliği;<br><br>5.1.2 gənclər arasında sağlam həyat tərzinin təbliği;<br><br>5.1.3 ailə ənənələrinin möhkəmləndirilməsi və inkişafı;<br><br>5.1.4 erkən nikahın və qohumlar arasında nikahın mənfi fəsadlarının izah edilməsi;<br><br>5.1.5 erkən nikahın və qohumlar arasında nikahın səbəblərinin təhlili və onların aradan qaldırılması üzrə tədbirlərin həyata keçirilməsi; | Qobustan RİH, Qobustan Gənclər evi SXM, Qobustan rayon Gənclər və İdman idarəsi, | Mütəmadi | Qobustan rayon İcra Hakimiyyəti, Qobustan rayon Gənclər Evi SXM və Qobustan rayon Gənclər və İdman idarəsinin, Mədəniyyət və təhsil müəssisələrinin birgə təşkilatçılığı ilə gənclər arasında gənclər arasında ailə dəyərlərinin təbliği, sağlam həyat tərzinin təbliği, ailə ənənələrinin möhkəmləndirilməsi və inkişafı, erkən nikahın və qohumlar arasında nikahın mənfi fəsadları, erkən nikahın və qohumlar arasında nikahın səbəblərinin təhlili və onların aradan qaldırılması, gənclərin ailə qurmağa hazırlıq səviyyəsinin artırılması və onlarda ailə məsuliyyətinin formalaşdırılması, gənclərə məsləhətlərin verilməsi və psixoloji dəstəyin göstərilməsi istiqamətində xüsusilə ucqar kənd məktəblərində gənclər və yuxarı sinif şagirdlərini cəlb etməklə maarifləndirici tədbirlər keçirilmişdir. | + | | |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | 5.1.6 gənclərin ailə qurmağa hazırlıq səviyyəsinin artırılması və onlarda ailə məsuliyyətinin formalaşdırılması;<br><br>5.1.7 gənclərə məsləhətlərin verilməsi və psixoloji dəstəyin göstərilməsi. | | | | | | |
| 2. | 6.1.6 | Yerli icra hakimiyyəti orqanları (icra nümayəndəlikləri vasitəsilə) nikaha daxil olmaq üçün müraciət edən erkən nikah yaşında olan gənclərin erkən nikahın və qohumlar arasında nikahın həyat və sağlamlığına, həyat keyfiyyətinə, mənəvi-psixoloji inkişafına mənfi təsiri barədə məlumatlandırılmasını təmin edir. | Qobustan RİH | Mütəmadi | Qobustan RİH-ə erkən nikah yaşında olan gənclərin nikaha daxil olmaq üçün nikah yaşının azaldılması ilə bağlı müraciət etmiş gənclərə erkən nikahın və qohumlar arasında nikahın onların həyat və sağlamlığına, həyat keyfiyyətinə, mənəvi-psixoloji inkişafına mənfi təsiri barədə, ailə dəyərlərinə hörmətlə yanaşı gənclərin həyatında təhsil və karyeranın rolu barədə profilaktik söhbətlər aparılır, qanunla nəzərdə tutulmuş nikah yaşına çatdıqda ailə qurmaq tövsiyə olunur. | + | | |